**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**

**ELMİ-METODİKA ŞÖBƏSİ**



# 16 noyabr tolerantlıq günüdür

**Bakı - 2013**

## Tərtibçidən

Ölkəmiz bu gün tolerantlıq modeli kimi dünyada tanınır.Tolerantlıq insanlar və icmalar arasında qarşılıqlı hörmətin bünövrəsidir və ortaq dəyərlər ətrafında vahid qlobal cəmiyyətin qurulması üçün həyati əhəmiyyət kəsb edir. Bu bir məziyyət, mənəvi keyfiyyətdir, lakin hər şeydən əvvəl tolerantlıq bir əməldir – başqalarına əlini uzatmaq və mövcud fərqlilikləri maneə kimi deyil, dialoq və anlaşmaya dəvət kimi qəbul etməkdir.

Bəli, Tolerantlıq insanlar arasında körpülər salmaqla və ünsiyyət üçün yollar açmaqla bu çətinliklərin bir qisminə cavab verir. Tolerantlıq bütün təcrübə və dünyagörüşlərin bərabər qəbul edilməsi deyil. Əksinə, onun dəyəri universal insan hüquqları və əsas azadlıqlar haqqında məlumatlılıq və hörməti təlqin etməkdədir. Tolerantlıq Birləşmiş Millətlər Təşkilatının məğzini təşkil edir. Tolerantlıq öz-özünə meydana gəlmir. O, öyrədilməli, yetişdirilməli və başqalarına ötürülməlidir. Tolerantlığın zəruriliyi hər birimiz üçün aydındır. Lakin iradəmiz daha güclü olmalıdır.

Bu sahədə kitabxanalarımızın da üzərinə çox böyük məsuliyyət düşür. Çünki kitabxanalarımızın bəzəyi olan kitablar zəngin və qüdrətli ideya mənbəyidir. Yaxşı kitab onu oxuyana gözəl insani duyğular, yüksək əxlaqi keyfiyyətlər, insanpərvərlik, vətənpərvərlik, qəhrəmanlıq, tolerantlıq kimi hisslər aşılayaraq onu pis əməllərdən, çirkin niyyətlərdən çəkindirir. Bəli, kitab bəşər mədəniyyətinin böyük təzahürü, cəmiyyətin maddi və mənəvi həyatının tərkib hissəsi, siyasi – ideoloji mübarizə vasitəsidir. Müxtəlif tarixi dövrlərdə insanlar kitab vasitəsilə həyatı öyrənmiş, təhsil almış, təbiətin və cəmiyyətin qanunauyğunluqlarını dərk etmiş, öz mənəvi aləmlərini zənginləşdirmiş, mədəni səviyyələrini yüksəltmiş, tolerant bir vətəndaş olmuşlar. Gəlin, ürəklərimizi və beyinlərimizi ayrı-seçkilik və təcridlə üzləşənlərin probelmlərini həll etməyə yönəldək, tolerantlığı təbliğ edək. Elmi - metodiki şöbə olaraq bu mövzuda vəsait hazırlamağı özümüzə borc bildik.

Uşaq kitabxanaları üçün nəzərdə tutulmuş “ 16 noyabr tolerantlıq günüdür” adlı vəsaitimiz 2 hissədən ibarətdir.

I hissədə Azərbaycanda Tolerantlıq , onun təbliği, bu sahədə dövlətimiz tərəfindən gələcəkdə görüləcək işlər, II hissədə kitabxanalarda tolerantlıqla bağlı keçiriləcək tədbirlərdən söhbət açılır. Vəsaitdə kitabxanamızın öz iş təcrübəsi əsas götürülmüşdür.

# Azərbaycan Qafqazın işıq saçan mayakıdır , tolerant ölkədir və onun nuru dünyanın hər bir tərəfinə yayılır, insanlığa yol göstərir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**



16 noyabr tolerantlıq günüdür. Beynəlxalq Tolerantlıq günü 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilib. Məqsəd qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Azərbaycan indi bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanınır. Ulu öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. Prezident İlham Əliyevin dindarlarla keçirdiyi görüşlər, Ramazan bayramlarında ənənəvi olaraq din xadimləri ilə iftar süfrələrində birgə iştirakı və bu mərasimlərə Azərbaycanda mövcud digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin artıq tam bərqərar olduğunu  göstərir. Prezident dindarlarla görüşlərində islam dininə elmi yanaşmanı, islam elminin və fəlsəfəsinin öyrənilməsini mühüm şərt kimi səciyyələndirir.   Dövlətin gücünü  əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgə yaşayışında görən Azərbaycan prezidenti bütün dünyaya göstərir ki, tolerantlıq Azərbaycan xalqının ruhundadır.

Bəli, Azərbaycan çoxmillətli  dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq və qoruyacağıq.   Xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Hələ andiçmə mərasimində "Mən hər bir Azərbaycanlının Prezidenti olacağam" - deyən Azərbaycan Prezidenti İlham Əliyev xüsusi həssaslıqla onların problemlərinin həlli üçün bütün lazımi tədbirləri həyata keçirir. Dövlət başçısı İlham Əliyev çıxışlarında  bildirib: "Bu gün Azərbaycan güclü dövlətdir və bizim gücümüz təkcə iqtisadi nailiyyətlərlə ölçülmür. Cəmiyyətimizin çox sağlam dayaqları vardır. Bu dayaqlar tarix, dərin mənəviyyat, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək üzərində qurulubdur. Hesab edirəm ki, bizim təcrübəmiz bir nümunə olaraq artıq dünyada öyrənilir.

Azərbaycanda vaxtaşırı keçirilən mötəbər beynəlxalq tədbirlər, xüsusilə dini və milli dözümlülüklə bağlı olan tədbirlər bir daha bunu göstərir, müxtəlif bölgələrdən, diyarlardan gələn qonaqlar vurğulayırlar ki, Azərbaycanda bu münasibətlər ən yüksək səviyyədə qurulmuşdur. Bizim üçün isə bu, təbiidir. Çünki bu, bizim həyat tərzimizdir, başqa cür ola da bilməz. Ancaq bəzi hallarda başqa ölkələrdə yaşanan olaylara nəzər salaraq görürük ki, heç də hər yerdə belə deyildir. Ona görə bir daha əldə edilmiş bütün bu nailiyyətləri düzgün təhlil edərək deyə bilərik ki, bu, bizim böyük sərvətimizdir, böyük xoşbəxtliyimizdir. Biz bu dəyəri qorumalıyıq və qoruyacağıq. Dövlət öz tərəfindən üzərinə düşən vəzifələri icra edir. Çox şadam ki, bütün dini icmalar, dini konfessiyalar da bu sahədə vahid mövqedən çıxış edirlər".

Azərbaycan xalqını vahid ideologiya ətrafında birləşdirən onun zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələri ilə yanaşı, həm də islam dinidir. Xalqın dini dəyərlərinin və mədəniyyətinin qorunması istiqamətində ötən müddətdə atılan ardıcıl addımlar bu siyasətə alternativin olmadığını sübuta yetirir. Vahid bəşəriyyət insan müxtəlifliyinin möhtəşəm zənginliklərinə qarşılıqlı hörmət əsasında birlikdə yaşamaq və birgə işləmək deməkdir.

Bu gün dünyamız müharibə, terrorizm, insanlığa qarşı cinayətlər, etnik təmizləmə, azlıqlara və mühacirlərə qarşı ayrı-seçkilik və belə çoxsaylı hallar ilə üzləşməkdə davam edir. Bu da qloballaşan dünyada bizi bir araya gətirməklə yanaşı, həm də böyük qorxu hissinə və daxili ziddiyyətlərə səbəb olur. Planetimizin fəaliyyəti üçün dəhşətli təhlükələrin artması və bunun nəticəsində yaranmış gərginlik potensialı tolerantsızlığa aparır. Bunun qarşısını almaq üçün dövlətimiz bu sahədə çox uğurlu addımlar atıb. Məsələn:
29.05 2013 –cü ildə Bakı Biznes mərkəzində II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən Milli Tolerantlıq Mərkəzinin beynəlxalq təqdimat mərasimi keçirilib.

Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev ölkəmizdə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ilk tədbir olan Milli Tolerantlıq Mərkəzinin təqdimatında Milli Tolerantlıq Mərkəzinin dinlərarası və mədəniyyətlərarası tolerantlığa töhfə verəcəyini qeyd edib, Milli Tolerantlıq Mərkəzinin gələcəkdə mövcud ənənələrə böyük töfhə verəcəyini söyləyib.

Təqdimat mərasimində Milli Tolerantlıq Mərkəzi "Hörmət naminə birləş" adlı layihə çağırışının təqdimatı olub. Təqdimatda Azərbaycanda dövlət qeydiyyatından keçmiş müxtəlif dinlərə mənsub dini icmaların Milli Tolerantlıq Mərkəzinə birgə layihə təqdim etməklə maliyyələşdiriləcəyi vurğulanıb, qeyd edilib ki, bu dinlərarası dialoqun daha da möhkəmləndirilməsinə xidmət edəcək.
Sonda İSESKO və BMT Azərbaycandakı nümayəndəliyi ilə DQİDK arasında ikitərəfli əməkdaşlığa dair sənəd imzalanıb. Bu bizim Azərbaycan xalqı üçün çox sevindirici haldır.

Azərbaycan dövləti artıq dünya xəritəsində tolerantlıq mərkəzinə çevrilib. Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı: Azərbaycan" layihəsi çərçivəsində həyata keçirdiyi nailiyyətlər hamımızı sevindirir.

Biz əminik ki, ölkəmizdə nə dini, nə milli zəmində heç vaxt heç bir qarşıdurma, anlaşılmazlıq olmayıb və olmayacaq. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri ilə tarixən zəngin olan Azərbaycan bütün dünyada bir çox millətlərin və dini konfessiyaların yanaşı yaşamasını təmin edən ölkə kimi nümunə göstərilir.

Həmçinin BMT-nin Sivilizasiyalar Alyansı media ilə tərəfdaşlıq və gənclərin mübadilə proqramları vasitəsi ilə ekstremizmlə mübarizə aparmaq və mədəniyyətlərarası anlaşmanı təbliğ etmək istiqamətində dəyərli səylərini davam etdirir. BMT "dialoq və qarşılıqlı anlaşma" adı altında Beynəlxalq Gənclər İlinə start verib. YUNESKO-nun təşəbbüsü olan 2010 - cu il Beynəlxalq Mədəniyyətlərin Yaxınlaşması ilinin əsas mövzusu da tolerantlıqdır.

1995-ci ildə YUNESKO 16 noyabr tarixini hər il Beynəlxalq Tolerantlıq günü elan etmişdir. Bununla yanaşı, dini dözümlülüklə bağlı ondan çox saziş, bəyannamə və tövsiyə də vardır. Həmin sənədlərin hər biri öz əhəmiyyətini qoruyub saxlayır və onların hər birinə tam mənada hörmət edilməlidir. Bu gün dünyamız müharibə, terrorizm, insanlığa qarşı cinayətlər, etnik təmizləmə, azlıqlara və mühacirlərə qarşı ayrı seçkilik və belə çoxsaylı hallar ilə üzləşməkdə davam edir.

Güclü vətəndaş cəmiyyətinin olması, insan hüquqlarına diqqətin artırılması, azad və məsuliyyətli mətbuatın mövcudluğu bizim ən qüdrətli təminatçılarımızdır. Lakin o da məlumdur ki, müsbət dəyişikliyin əsas icraçıları beynəlxalq konvensiya və sazişlərə imza atan hökumətlərdir.

1995 -ci il noyabrın 16-da keçirilmiş UNESKO Baş Konfransının 28-ci sessiyasında Tolerantlıq prinsiplərinə dair bəyannamə qəbul olunmuşdur. Bu bəyannamədə tolerantlıq anlayışına belə açılış verilmişdir: "dözümlülük, ilk növbədə, insan azadlıqları və universal hüquqların etirafı əsasında formalaşan fəal münasibətdir". Son onilliklərdə dünyada böyük dəyşiliklər baş vermişdir. Bu hadisələrdə tolerantlıq fenomeninin diqqətdə saxlanılmasına və onun tarixi, elmi - fəlsəfi mahiyyətinin hərtərəfli araşdırılmasına ehtiyac duyulur.

Bəşəriyyətin keçdiyi son elmi-texniki inqilablar (mühərrikin və kompyuterin ixtirası) dünyanı qloballaşdırdı. Yəni dünya dövlətlərini bir-birindən qarşılıqlı asılılıq halına gətirdi. İndi insanlar saatda 1000 km sürəti ilə yerlərini dəyişə bilirlər. Nəticədə müxtəlif əlamətlərə malik (dərinin rəngi, irq, cins, dil, din, siyasi, milli, sosial və digər mənşəli əqidələr ) insanlar bir- birinin içərisinə nüfuz edirlər. Müəyyən obyektiv və subyektiv səbəb ucundan miqrasiya etmiş insanlar, həyat səviyyəsi yüksək olan ölkələrdə gərgin hadisələrlə qarşılaşırlar. Bu hadisələri nizamlamaq üçün gəlmələrə yeni münasibət, dözümlü münasibət göstərmək reallığı yaranır. Bu yeni münasibətlər "tolerantlıq" adlanır. Azərbaycan dilinə bu söz "dözümlülük" kimi tərcümə edilir. Hesab edirəm ki, bizim "dözümlülük" sözünün arxasında duran münasibət real vəziyyəti düzgün əks etdirmir. Bizim bu fenomenə münasibətimiz türk dilində işlədilən "xoşgörülü" ifadəsinə daha yaxındı. Azərbaycanda yadelliyə, gəlməyə münasibət həmişə yaxşı olubdur. Ancaq tarixi təcrübə göstərir ki, lazım olandan daha çox tolerant olmaq bəzən bəlalar da gətirir. Misal üçün, ermənilər bizim isti dözümlülüyümüzdən sui-istifadə edərək, əvvəlcə

bu torpaqda məskunlaşmış, sonralar isə torpaqlarımızı zaman-zaman ələ keçirə bilmişlər.

Tolerantlıq fikirlərinin yaranmasının əsasını 1948-ci il İnsan Hüquqlarına dair Ümumi Bəyannamənin qəbulu təşkil etdi. Bu bəyannamədə göstərilirdi ki, "insan ailəsinin bütün üzvlərinə məxsus ləyaqətin etirafı və onların bərabər, ayrılmaz hüquqları azadlıq, ədalət və ümumi dünyanın əsasını təşkil edir", "insan hüquqlarına qarşı etinasızlıq və nifrət insanın vicdanını hiddətləndirən vəhşi aktlara gətirib çıxarır". İnsan hüquqlarına dair bəyannamənin qəbul edilməsindən sonra dözümlülük barəsində bir çox aktlar və bəyannamələr qəbul edilmişdir. 1993-cü il 8 - 9 Oktyabr tarixində Vyanada keçirilmiş Avropa Şurasının üzv Dövlətlərinin Dövlət və Hökumət Başçılarının Zirvə Toplantısında irqçiliyin yüksəlişi, xaricilərə qarşı qərəzli münasibət və antisemitizm, dözümsüzlük mühitinin inkişafı, əsasən, mühacirlərə və mühacir mənşəli insanlara qarşı zorakılıq aktlarının artması, aqressiv millətçilik və etnomərkəzçilik formasında xaricilərə qarşı yeni qərəzli münasibətin inkişafı ilə bağlı həyəcan təbili səslənmiş və bunun nəticəsi olaraq irqçilik, xaricilərə qarşı qərəzli münasibət, antisemitizm və dözümsüzlüyə qarşı mübarizə üçün Fəaliyyət Planı qəbul olunmuşdur. Bu Fəaliyyət Planı cəmiyyətin səfərbərliyi və belə halların mübarizəsinə yönəlmiş təminat və siyasətlərin təkmilləşdirilməsi və səmərəli icrası üçün lazım olan geniş sayda görüləcək tədbirləri özündə əks etdirirdi.

Şərti olaraq tolerantlıq hadisəsini iki yerə bölmək olar: ölkədaxili və dövlətlərarası tolerantlıq.
Ölkədaxili tolerantlıq: Şərq ölkələrində qədimdən mövcuddur və bir mədəniyyət halına gətirilmişdir. Dövlət daxilində müxtəlif millətlərin bir-birinə məhəbbətli (xoşgörülü) münasibəti, bağışlamaq qabiliyyəti və s.

Bu sözlər Qurani - Kərimin bir neçə ayəsində keçir. Misal üçün, "Şuəra" sürəsinin 43-cü ayəsində deyilir: "Əlbəttə, hər kəs (pisliyə) səbr edib (qisası) bağışlayarsa, onun bu hərəkəti şəriətcə çox bəyənilən əməllərdəndir". Tolerantlıq Şərq mədəniyyətində də geniş kök atmış hadisədir. "Allaha da qurban olum, onun qonağına da" misalı yad adama münasibəti göstərir. Həzrəti-Mövlanaya görə, xoşgörülü olmaq insanlarla əlaqə yaratmanın ən yaxşı yoludur. Göründüyü kimi, tolerantlıq Şərqdə qədimdə bir əxlaq məsələsi olubdu. Bu gün Şərqdə ruhu olan tolerantlıq var, həm lokal, həm də qlobal mənada. Qərbdə tolerantlıq XVI əsrdən bəri diqqət mərkəzindədir. 1648- ci ildə imzalanmış Vestfal sülhü dini dözümlülüklə bağlı ilk sənəddir. İndi elmi-texniki tərəqqi dövründə bu məsələyə hüquq müstəvisində baxılır. Başqa cür desək, Qərbdə qlobal mənada (millətlərarası) tolerantlığın ruhu zəif olduğundan, ona hüquq müstəvisində geniş yer ayrılır.

Azərbaycanda tolerantlıq dövlət siyasətinin tərkib hissəsidir. Bu səbəbdən də Azərbaycan bu istiqamətdə çoxlu beynəlxalq tədbirlərə ev sahibliyi edir. Misal olaraq, cari ilin aprel ayında Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu və oktyabr ayında Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə keçrilən "XXI əsr: ümidlər və çağırışlar" devizli Beynəlxalq Humanitar Forumu , Qəbələdə keçirilən Beynəlxalq Musiqi Festifalı və s.

göstərmək olar. Keçirilən bu tədbirlərin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında çıxış edən Prezident qeyd edib ki, bu forumun Bakıda keçirilməsi təsadüfi deyil. Çünki Azərbaycan qədim, dini və milli tolerantlıq ənənələrinə malikdir. Prezident bu fenomenə münasibətini belə ifadə etmişdir:

"İndi mədəni müxtəliflik, çoxmədəniyyətlilik məsələləri geniş müzakirə olunur. Və əgər bu gün kimsə çox mədəniyyətliliyə qarşı çıxırsa, bu halda soruşmaq lazımdır ki, o, bunun əvəzində nə təklif edir? Özünü təcrid etmənimi?" Və ya: "Müxtəlif millətlərin və dinlərin nümayəndələri həmişə Azərbaycanda bir ailə kimi yaşayıb və dövlətin bərabər müdafiəsində iştirak ediblər. Biz istəyirik ki, bizim təcrübəmiz öyrənilsin və başqa ölkələrdə maraq doğursun, çünki bu, nadir təcrübədir". Bu " nadir təcrübə " sözünü diqqətə çatdırmaq üçün Prezident əlavə edir: "Azərbaycan mədəni müxtəlifliyin zəruriliyi haqqında müzakirələrin getdiyi indiki dövrdə, dünyaya özünün milli və dini tolerantlıq təcrübəsini təklif edir ...

Biz tam əminik ki, milli və dini amilindən asılı olmayaraq, istənilən cəmiyyətdə normal münasibətlər qurmaq mümkündür. Əlbəttə, bunun üçün ənənələr olmalıdır, eyni zamanda, siyasi iradə olmalıdır. Azərbaycanda hər iki amil mövcuddur". Tolerantlıq ilə millilik harmoniyada olanda, tolerantlıq Prezident İlham Əliyevin dediyi kimi, "güc mənbəyinə" çevrilir. Azərbaycanda tolerantlıq ənənəsi var. Yaxın tariximizdən bir neçə misal gətirmək istəyirəm. Bu istiqamətdə Ulu Öndər Heydər Əliyevin bir kəlamında deyilir: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Başqa bir kəlamında Ulu Öndərimiz deyir:

"Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır".
Biz ölkəmizə layiqli vətəndaş olaraq bu hikmətli sözlərdən həmişə yararlanmalıyıq.

2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında 2015-ci ildə I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir. Avropa Olimpiya Komitəsinin üzvü olan 49 milli olimpiya komitəsindən 48-nin iştirakı ilə keçirilmiş gizli səsvermədə 38 ölkə lehinə, 8 ölkə əleyhinə, 2 ölkə bitərəf olmaqla I Avropa Oyunlarının Bakıda keçirilməsi təsdiqlənmişdir. I Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmiz üçün, ümumiyyətlə, bütün Avropa Olimpiya hərəkatı üçün tarixi hadisədir. Regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı, dünya birliyində tutduğu mövqe, mövcud ictimai-siyasi sabitlik beynəlxalq ictimaiyyətdə əminlik yaradıb ki, ölkəmiz bu mötəbər tədbirə uğurla ev sahibliyi edə biləcəkdir. Bu qərarın qəbul edilməsi respublikamızda çoxsaylı idman yarışlarının, Avropa və dünya çempionatlarının yüksək səviyyədə keçirilməsinə, idmançılarımızın beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətlərə, ümumilikdə Azərbaycanda idman sahəsində görülmüş işlərə beynəlxalq və Avropa Olimpiya Komitəsi tərəfindən verilən yüksək qiymətdir. Bu faktlar Azərbaycan Respublikasının mədəniyyət və tolerantlıq sahəsində irəli atdığı ən uğurlu addımlardandır.

II hissə:

Tolerantlıq insanlar və icmalar arasında qarşılıqlı hörmətin bünövrəsidir və ortaq dəyərlər ətrafında vahid qlobal cəmiyyətin qurulması üçün həyati əhəmiyyət kəsb edir. Tolerantlıq bir mənəvi keyfiyyət, bir əməldir, yəni başqalarına əlini uzatmaq və mövcud fərqlilikləri maneə kimi deyil, dialoq və anlaşmaya dəvət kimi qəbul etməkdir.

Məktəblilər və yeniyetmələr arasaında toleranlıq mövzusunu yaymaq və gücləndirmək məqsədilə uşaq kitabxanaları da bir çox tədbirlər keçirməyi qarşısına vəzifə qoymuşdur.

Uşaq kitabxanası olaraq uşaqlara, dürüstlük, hörmət, cəsarət, tolerantlıq kimi dəyərləri inkişaf etdirmələri üçün yardımçı olmaq, oxumaq, fənn öyrətmək qədər vaciblidir. Bir çox dəyərlərin yaşayış əsnasında itirilməsi, mövzunun daha da həssas şəkildə ələ alınmasının vacibliliyini bildirir. "Dürüst ol", "Hörmətli davran", kimi mücərrəd istiqamətləndirmələr əvəzinə, tətbiqi yanaşmalarla uşaq və gənclərə dəyərlər başa salına bilər. Kitabxanaçıların tətbiq edə biləcəkləri bəzi əsaslı konkret və yaradıcı öyrəşdirmələr:

**Dürüstlük**. Kitabxanada uşaqlarla birlikdə dürüstlük mövzusunda kitablar oxumaq və filmlər izləmək.Qəzetlər, yurnallar , uşaq hekayələri, nağılları oxuyub incələdikdən sonra, əsas mövzusu dürüst insanlardan ibarət olan məqalələri seçmələrini tapşırıq verin. Yazıda haqqında danışılan insan dürüst olmasaydı, nəticə necə ola bilərdi? Digər insanlar bu vəziyyətdən təsirlənərdilərmi? Necə? Bu sualları onlarla ətraflı müzakirə edərək cavablayın. Uşaqlara qəzetlərdə dərc edilən, yalan danışan, oğurlayan, insanlarla bağlı xəbərləri oxumaqlarını söyləyin. Əgər bu insanlar dürüst davransaydılar bu çətinliklər meydana gələrdimi? Müzakirə edin. Psixologiya və nağıl saatlarında plakat yarışması təşkil edin. İnsanlara dürüstlüyü, tolerantlığı öyrədən, orijinal plakat və şuarların hazırlanması mövzusunda onlara istiqamət verin.

**Cəsarət**.Uşaqlarımızın cəsarətli olmaqları lazım gələn hallarda, bu vəziyyətdən necə çıxılmasını anlamaları üçün ssenarilər qurun. Məsələn; kitabxanada, məktəbdə biri kobud davransa, necə münasibət bildirər? Təhlükədə olan yoldaşına yardımçı olarmı? Bir dostu spirtli içki, siqaret və ya narkotik maddə təklif etsə nə edər? Kiçik səhnəciklər quraraq, bu halları canlandırın.Uşaqlar qaranlıqdan, ildırım çaxmasından, göy gurultusundan və sair bir çox şeylərdən qorxarlar . Qorxularla üzləşmək üçün cəsarətli olmaq lazımdır. Birlikdə sevdiyi çizgi film və ya bir nağıl qəhramanının şəklini çəkib asın və buna baxaraq özünü onun kimi güclü, cəsarətli hiss etməsini söyləyin.Cəsarətli olması lazımlı olan hallardan bəhs edin. Məsələn; Psixologiya və nağıl saatlarında uşaq düzgün olmayan bir hərəkət etdiyində üzr istəməyi, başqaları fərqli düşünsə də, həmişə öz düşüncələrinin arxasında durmağı bacarmalıdır. Qorxmaması, mübariz olması lazım olan hallara, onunda bir neçə misal göstərməsini istəyin. Cəsarətli olması mövzusunda, altı guşəli bir çizgi film quraşdırmasına yardımçı olun.

**Hörmət**. Bütün ailə birlikdə ekran qarşısında əyləşərkən, izlədiyiniz verlişlərdə hörmət (və ya hörmətsizlik) olaraq göstərilən nümunələr üzərində dayanın. İnsanların bir-birinə necə davrandıqlarını, necə hörmət bəslədiklərini, nə dərəcədə tolerant insan olduqların ımüzakirə edin. Kitabxana tədbirlərində, futbol matçında, teatrda və ya ümumi nəqliyyat vasitələrində hörmətli davranmağın yolları hansılardır? Bu suala birlikdə cavab axtarın.Təbiətə qarşı hörməti nümayiş etdirmək üçün oxucularla birlikdə hər hansı bir parkı, kitabxananın ətrafyanı sahəsini, məktəbyanı sahəni və ya bir çimərliyi təmizləmə günü təşkil edin. Nağıl otağında hər hansı nağılı izah etmə fəaliyyəti ilə redaktə edin. Bir nəfər "Biri var imiş, biri yox imiş, heç kəsin düzgün tərbiyə olunmadığı bir ölkə var imiş" deyərək nağıl danışmağa başlasın. Hər kəs xəyal qurma gücündən istifadə edərək, evdə, işdə, məktəbdə, mağazada hörmətin, tərbiyənin olmadığı bu ölkəylə bağlı bir fikir söyləsin. Daha sonra bu hörmətsiz yaşayanlar ölkəsinin insanlarının, əslində necə davranmaları lazım olduğu barəsində söhbət etsinlər.

"**Tolerantlıq həftəsi**" təşkil edin. Oxucularınıza , ailə üzvlərinə, dostlarına və cəmiyyət fərdlərinə qarşı tolerant olmağı, yaxşı münasibət bəsləməli olduqlarını xatırladın. "Tolerantlıq" həftəsindən sonra səylərinin nəticəsini və insanların münasibətlərini onlarla bölüşün. Birlikdə yaşamaq göründüyü qədər asan deyil.

Uşaq otağında övladınızın yatmağa çalışarkən, böyük bacısının işığı yandırıb dərs oxuyaraq ali məktəbə hazırlaşmasına nəzər yetirin. Ondan bu vəziyyətə bacısının gözüylə baxmağı və bu fikirləri bir vərəqə yazmağını istəyin. Uzlaşmağı təmin edə biləcək bir həll üçün ona yardımçı olun.

Bildiyimiz kimi hər bir ölkənin fərqli adət-ənənəsi vardır. Kitabxananın oxu zalında və ya nağıl otağında yer kürəciyini fırladın və bir ölkə seçin. Seçdiyiniz bu ölkənin inanc və adət-ənənələrini oxucularınıza araşdırmalarını söyləyin. Kitabxanada oxucularla Azərbaycanda yaşayan azsaylı xalqların nağıl kitablarından istifadə edərək, səhnəcik düzəldin. Balaca dostlarımız üçün ”Yurdunu və yurddaşını daha yaxından tanıdan nağıllar” başlığı altında nağıl həftəsi hazırlayın. Məsələn: ləzgi nağılı “Çınqıllı – çınqıllı bala sərçə”,talış nağılı “Sirli dolça”, yəhudi nağılı ”Leviafan, tülkü, bir də balıqlar”, rus nağılı “Balıqçı və qızıl balıq” və s. Fərqliliklərin dünyanı daha da rəngarəng etdiyi düşüncəsini müzakirə edin. Kitabxanaçı olaraq uşaqlara tolerantlığı təmsil edəcək bir plakat hazırlamalarında yardımçı olun. Diqqəti cəlb edən şüarlar və şəkillərlə, onları yaradıcı olmaları mövzusunda yönləndirin.Bəli, biz uşaq kitabxanası olaraq tolerantlığı oxucularımız, onların valideynləri arasında təbliğ etməliyik. Belə ki, kitabxanaya gələn hər bir oxucuya kitabxanaçı bu haqda məlumat verməlidir. Bu məlumat məktəbli və yeniyetmə oxucularımızın dünyagörüşünün artmasına, ətrafındakı insanlarla ünsiyyət qurmasına çox kömək edəcəkdir. Məsələn: Bildiyimiz kimi Azərbaycanda azsaylı xalqlar çoxdur. Bunlara ləzgilər, talışlar, avarlar, ruslar və s aiddir. Bu xalqlar arasında qarşılıqlı münasibəti gücləndirmək üçün rayonlarımızda yerləşən uşaq kitabxanalarında belə bir tədbir keçirə bilərik.

Bir həftə ərzində hər gün Azərbaycan ərazisində yaşayan azsaylı xalqların adət-ənənələrindən bəhs edən “Hər birimiz günəşin bir zərrəsiyik” başlığı altında tədbir.

Bir ay əvvəldən tədbirə hazırlıq işləri görülür. Kitabxana hansı bağçalarla, məktəblərlə işləyəcəyini təyin edir və müdriyyətə bildirir. Kitabxanada bu xalqların mədəniyyətindən bəhs edən sərgilər təşkil olunur. Bu işə kitabxana ətrafında yerləşən məktəblər, uşaq evləri, internat məktəbləri cəlb olunur.Tədbirə gələn tamaşaçılar ilk öncə sərgi ilə tanış olurlar. Sonra iştirakçılara bu xalqlardan bəhs edən slayd təqdim olunur. Sərgidə adı çəkilən xalqların adət ənənələrindən, nağıllarından, kulinariyasından bəhs edən şəkillər, əl işləri, kitablar nümayiş olunur.

I gün . Ruslar: İlk öncə tədbir iştirakçılarına Rus xalqının tarixindən, adət - ənənələrindən, kulinariyasından bəhs edən slayd təqdim olunur. Sonra isə kiçik və orta yaşlı oxucuların ifasında rus xalqına mənsub olan şeirlər, nağıllar, mahnılar səsləndirilir, adət ənənələrindən bəhs edən sərgi təşkil olunur.Tədbirdə rus xalq nağıllarından ən maraqlısı səhnələşdirilir. Az yaşlı oxucularımız rus xalq nağılına mənsub paltarlarla səhnəni bəzəyirlər. Tədbir iştirakçıları arasında tolerantlıqla bağlı viktorinalar , rəy sorğuları təşkil olunur. Oxucular arasında kitabları ən çox oxunan, sevilən rus xalqına mənsub yazıçı və şair təyin edilir.

II gün Ləzgilər. Məktəbli oxucularımız ləzgi xalqının adət ənənələri, rəqsləri, mahnıları nağılları, yeməkləri ilə səhnəni bəzəyirlər. Tamaşaçılara ləzgi xalqına mənsub olan nağıllardan bir hissəsi səhərcik şəklində təqdim olunur. İştirakçılar ləzgi xalqını tərənnüm edən sərgi, slayd ilə tanış olurlar.

III gün: Talışlar. Oxucular talış adət ənənələri, rəqsləri, mahnıları, nağılları ilə səhnədə çıxış edirlər.

Uşaqlar talış xalqına mənsub paltarlarla səhnəni bəzəyirlər. Bu xalqı tərənnüm edən sərgi, slayd tədbir iştirakçılarına təqdim olunur.

IV gün . Avar millətinin adət ənənələrindən , rəqslərindən, mahnılarından, nağıllarından söhbət açılır. Məktəblilər tamaşaçılara avar xalqına mənsub nağıllar əsasında səhnəcik təqdim edib, tolerantlıqla bağlı viktorinalar təşkil edirlər.

Kitabxana sahəsində bu mövzuda tədbirlərin keçirilməsində məqsəd Azərbaycan xalqının yüksək səviyyədə tolerant, qonaqpərvər bir xalq olmasını bütün xalqlara təbliğ etməkdir.

Hamımıza məlumdur ki, hörmətli prezidentimiz İlham Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində Azərbaycan Respublikası demək olar ki dünyanın bütün inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. Ölkəmizdə çox sayda xarici ölkələrin səfirlikləri yerləşir. Həmçinin Azərbaycanın dünyanın əksər ölkələrində səfirlikləri var. Tolerantlıq sahəsində görülən işlər Azərbaycan Respublikasının inkişafı və gələcəyi üçün çox şey deməkdir.

Tolerantlıq mövzusunda Beynəlxalq uşaq ili ilə əlaqədar uşaqları muzeylərə, rəsm sərgilərinə aparmaq yerinə düşərdi. Məsələn: Xalq rəssamı Mikayıl Abdullayevin əsərlərindən ibarət olan rəsm sərgisi. Rəssamın əsərlərinin çox hissəsini tolerantlıq, xarici ölkələrə dostluq və mədəni əlaqələr təşkil edir.

Kitabxanaçı əvvəlcədən bu rəsmlərlə tanış olur, rəssamın öz tablolarında xarici ölkələrin uşaqlarını məhəbbətlə təsvir etdiyini, surətlərini ilhamla yaratdığını görür və bu təşəbbüsü Mədəniyyət və Turizm Nazirliyinin və müdriyyətin köməkliyi ilə həyata keçirir.

Rəssamın sərgisi sanki kiçik bir dünyadır. Bu dünyada biz Hindistan, Vyetnam, Yuqaslaviya, İtaliya və başqa xarici ölkə uşaqlarının həyatı ilə yaxından tanış ola bilərik. "Hindistan madonnası", "Körpəsinə süd verən ana", "Bacı və qardaş" tablolarının sərgiyə dəvət almış qonaqları cəlb edəcəyindən əminik.

Bildiyimiz kimi 23 aprel Dünya Uşaq Bayramıdır. Milli birlik və bərabərlik duyğusu ilə bütünləşən və 23 aprel 1920 - ci il tarixdə qurulan Türkiyə Böyük Millət Məclisinin açılışı 1929 – cu ildən bəri Uşaq Bayramı kimi qeyd edilir. Azərbaycanlı uşaqların və Uşaq kitabxanalarının Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə bu bayrama qatılması yerinə düşərdi. Çünki bu bayram artıq Türkiyəli uşaqların çərçivəsindən çıxmış, dünyanın müxtəlif ölkələrindən gəlmiş uşaqların iştirak etdiyi Dünya Uşaq Bayramına çevrilmişdir. Önümüzdəki əsrdə yeni müharibələrin olmaması, günahsız insanların əzab çəkməməsi və ən əsası da insanların insan kimi yaşaması üçün müasir uşaqların gələcək üçün yetişdirilməsi çox əhəmiyyətlidir. Bu gün bir araya gələn uşaqlar eyni ölkənin övladları kimi, birlikdə gülüb - oynayırlar. Sabah öz dövlətlərini idarə etməyə namizəd olan bu uşaqların bir - birlərini başa düşmələri qeyri - mümkün olacaq. Məncə, bu uşaqlar öz aralarında qurduqları dostluqları daha da inkişaf etdirərək gələcəkdə sülh şəraitində yaşayan bir dünyanın bərqərar olmasına nail olacaqlar...

Bu vəsaitimizdə F. Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq tolerantlıq mövzusunda kitabxanamızın həyata keçirdiyi tədbirlərin bir qismi ilə sizi tanış etməklə, MKS - in uşaq şöbələrinə bu mövzuda köməklik etmək istəyirik.

Tolerantlıq mövzusu ilə əlaqədar olaraq F. Köçərli adına Respublika Uşaq Kitabxanası bir sıra tədbirlər həyata keçirmişdir.

I Respublika uşaq kitabı bayramı da tolerantlıq mövzusu ilə sıx bağlı olan bir bayramdır. Bu münasibətlə 2009 - cu il dekabrın 9- dan 14 - nə qədər F. Köçərli adına Respublika Uşaq Kitabxanasında "Uşaq ili" çərçivəsində "Dünya uşaq ədəbiyyatının inciləri" adlı beynəlxalq kitab sərgisi təşkil olundu. Kitabxanada Türkiyə, ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, İtaliya, Polşa, Norveç, Rusiya , Bolqarıstan, Estoniya, Litva, Belarus, Ukrayna, Hindistan da daxil olmaqla 20 ölkənin Azərbaycandakı səfirliklərini təqdim etdikləri 300 - dək kitab, jurnal və bukletlər, Azərbaycanda nəşr olunan yüzlərlə uşaq ədəbiyyatı nümunələri sərgiləndi. Sərgidə ayrı-ayrı guşələrdə nağıl qəhrəmanlarını xatırladan eksponatlar yaradılmışdı. Lentlərlə haşiyələnən müxtəlif mövzulara aid kitablar,

hər xalqın özünəməxsus ornamentləri, xarici dövlətlərin bayraqları ilə birgə nümayiş olundu. Sərgidə nümayiş etdirilən kitablar F. Köçərli adına Respublika Uşaq kitabxanasına hədiyyə edildi. Həmin nəşrlər indi kitabxananın nadir nüsxələr fondunda saxlanılır və sərgi salonunda geniş oxucu kütləsinin istifadəsindədir.




F.Köçərli adına Respublika Uşaq Kitabxanasının kütləvi işlər şöbəsi 13 mart 2012-ci ildə Moskva şəhəri Nepetinski rayonundakı uşaq evi ilə "Novruzum, Yazım mənim" adlı "Bakı - Moskva. Milli dəyərlərimizi qoruyaq" adlı telekörpü keçirdi. Tədbiri keçirməkdə əsas məqsəd Rusiyanın Moskva şəhərində yerləşən uşaq evinin sakinlərinə elimizin gözəl bayramı olan Novruzla bağlı məlumat vermək, uşaqları tolerant bir vətəndaş olmağa çağırmaq , uşaqların ifasında el şənliyini göstərməklə milli, mənəvi dəyərlərimizin dünyanın hər bir yerində qorunub saxlanması idi.

Uşaqlar moskvalı həmyaşıdları ilə dialoq qurdular, onları bayram münasibətilə təbrik edib, Azərbaycana dəvət etdilər.



Həmçinin F. Köçərli adına Respublika Uşaq Kitabxanası Volqoqrad şəhəri Vilayət Uşaq Kitabxanası ilə "Novruz gəldi, yaz gəldi" adlı "Rusiya – Azərbaycan İki

mədəniyyətin dioloqu” adlı telekörpü  də keçirdi. Tədbirin keçirilməsində məqsəd Rusiyada yaşayan azərbaycanlı uşaqlara Novruzla bağlı məlumat vermək, milli – mənəvi dəyərlərimizin qorunub saxlandığını nümayiş etdirmək idi. Telekörpüdə qarşı tərəfdən Volqoqrad Vilayətinin mədəniyyət və milli məsələlər  üzrə komitələrinin katibləri, “Ümumrusiya Azərbaycan Konqresi” Volqoqrad Vilayəti üzrə regional şöbənin katibi, kitabxana işçiləri, azərbaycanlı uşaqlar iştirak edirdi.

11 oktyabr 2012-ci ildə isə  F.Köçərli adına Respublika Uşaq Kitabxanası “Türk Xalqlarının   Ədəbiyyatı  II: Beynəlxalq Uşaq Ədəbiyyatı Konqresi“ nin açılışında 190 saylı məktəbin III sinif şagirdləri ilə birgə hazırladıqları proqramla iştirak etdilər. Kitabxananın fəal üzvləri olan bu uşaqlar özbək, qazax, qırğız, türk, türkmən, azərbaycan milli geyimlərində S.Vurğunun “Azərbaycan” şeirini türk xalqlarının müxtəlif dillərində söylədilər, rəqslər təqdim etdilər. Uşaqların çıxışları konqres iştirakçıları tərəfindən çox maraqla qarşılandı. Onlar kiçik hədiyyələrlə səhnəni tərk etdilər. Konqresdə 9 ölkədən gəlmiş uşaq ədəbiyyatı ilə məşğul olan yazıçı, alim və tədqiqatçılar iştirak edirdi. Universitetin foyesində türk xalqlarının uşaq kitabları və dövrü mətbuatının sərgisi, satışı təşkil olunmuşdu. Kitabxanamızın təsis etdiyi “Göy qurşağı” jurnalının son iki ildə nəşr olunan sayları sərgidə nümayiş olundu. Kitabxanamızın əməkdaşları  türk xalqları ədəbiyyatının mühüm bir hissəsi olan uşaq ədəbiyyatının bugünkü mənzərəsinin ortaya qoyulması və qiymətləndirilməsi, bu sahə ilə bağlı problemlərdən çıxış yollarının müəyyən edilməsi istiqamətində maraqlı təkliflərlə çıxış etdilər.




Kitabxanamız 19 sentyabr 2012-ci ildə Azərbaycan və İsrail yazarlar birliyinin üzvü, dağ yəhudisi, Azərbaycanın sayılıb-seçilən, uşaqların sevimli şairi Simax Şeydailə görüş keçirildi. Kitabxanada şairin uşaq şeirlərindən ibarət sərgi

təşkil olundu. Baxmayaraq ki, Simax Şeyda 20 ildir ki, səhhəti ilə əlaqədar Almaniyanın Münhen şəhərində yaşayır, amma onun ürəyi həmişə bizimlədir. Keçirilən bu tədbir  Azərbaycan xalqının nə qədər tolerant bir xalq olduğunu göstərdi.

2012 – ci ildə F.Köçərli adına Respublika Uşaq kitabxanası  mötəbər bir təşkilata- Beynəlxalq Uşaq Kitabı Şurasına (İBBY) üzv olmuşdur. Məqsədimiz Azərbaycanın nə qədər tolerant bir dövlət olduğunu dünya ölkələrinə göstərmək, Azərbaycanda uşaq yazıçılarını, rəssam və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltmək, Beynəlxalq Uşaq Ədəbiyyatı Şurası vasitəsilə ölkəmizi tanıtmaq, dünya arenasına çıxmaqdır. Iki ildən bir təşkilatın konqresi keçirilir. Bu il konqresin miqrasiya mövzusuna uyğun olaraq uşaq yazıçısı Qəşəm İsabəylinin kiçik hekayəsi müsabiqəyə təqdim olunmuşdur. Qurultayda 76 dövlətdən 500-dən çox nümayəndə iştirak edirdi. Sərgi salonunda Azərbaycan uşaq yazarlarının bir neçə kitabları ingilis dilində, kitabxananın təsis etdiyi “Göy qurşağı” jurnalının İBBY bağlı keçirilmiş tədbirlər haqqında məqalələr dərc olunmuş son nömrələri Azərbaycan bayrağı altında sərgiləndi. Heç bir sərgidə bayraq olmadığından nümayəndələrimizin təşkil etdiyi sərgi daha böyük maraq doğurdu. Uşaq yazıçısı Qəşəm İsabəylinin “Sabahın xeyir, baba!” adlı kiçik uşaq hekayəsi konqresin xüsusi buraxılmış kitabında ( “Biz hamımız bir torpağdanıq” - We’re all from the same Big Land) dərc olunmuşdu. Həmin məcmuədə ilk dəfə olaraq uşaq yazıçımız haqqında yazının dərc olunması, digər dövlətlərin yazıçıları ilə yanaşı bizim də dövlətimizin adının olması çox sevindirici haldır. Bu hadisə kitabxanamızın tolerantlıq sahəsində atdığı ən böyük nailiyyətlərdən biri idi.



8 noyabr 2012-ci ildə F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci ili "İdman ili" elan etməsi ilə əlaqədar olaraq "2012- İdman ili" adlı təbir keçirildi. Bu tədbiri keçirməkdə məqsəd Azərbaycanın nə qədər tolerant bir ölkə olduğunu, idman sahəsində bütün dünya ölkələri arasında tanındığını oxucularımıza çatdırmaq idi. Kitabxanada İdman ili ilə bağlı maraqlı sərgi təşkil olundu. Sərgi tədbir iştirakçıları tərəfindən maraqla qarşılandı.

1 iyun 2012-ci il tarixində Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə Nəsimi rayonundakı 46 saylı məktəbdənkənar tərbiyə mərkəzi ilə birlikdə bayram şənliyi və asfalt üzərində rəsm müsabiqəsi keçirilmişdir. Uşaqlar rəsmlərində "Terrorizmə yox deyək" , "Qoy həmişə günəş olsun" və s. mövzulara xüsusi yer ayırdılar. Bu mövzuda çəkilən şəkillər azərbaycanlı uşaqların nə qədər sülhsevər, tolerant uşaqlar olduğunun sübutu idi. Tədbirdə Nəsimi rayon polis idarəsinin əməkdaşları da iştirak etmişdir. Uşaqlar bir-birindən gözəl mahnı, rəqs və şeirlərlə çıxış etmiş, yol hərəkəti qaydalarını nümayiş etdirmişlər. Tədbirdə uşaqların rəsmləri, əl işləri də nümayiş olunmuşdur. Kitabxanamızın təşkil etdiyi kitab sərgisi tədbir iştirakçılarının marağına səbəb olmuşdur. Tədbirin sonunda rəsm müsabiqəsi qaliblərinə fəxri fərman və hədiyyə, iştirakçılara kitabxanamızın "Göy qurşağı" jurnalı verilmişdir.



15-31 may 2012-ci il tarixində 57-ci Avroviziya mahnı müsabiqəsinin ölkəmizdə keçirilməsi ilə əlaqədar olaraq F.Köçərli adına Respublika Uşaq kitabxanasında "Eurochildbook - 2012" adlı uşaq ədəbiyyatı sərgisi keçirildi. Sərgidə 42 dövlətin uşaq ədəbiyyatı nümayiş olundu. Hər gün Bakı şəhər məktəblərindən sərgiyə baxmağa uşaqlar gəlirdi. Sərginin açılışında Bakı şəhər kitabxanaları da iştirak etdi. Yüksək estetik zövqlə, bədii tərtibatla işlənmiş kitablar haqqında maraqlı fikirlər söyləndi. Sərginin daha da maraqlı olması üçün həmin ölkələrin milli

paltarlarının şəkil və gəlinçiklərinin nümayişi də uşaqların daha çox xoşuna gəlməklə yanaşı sərgilərə böyük maraq oyatdı.



F.Köçərli adına Respublika Uşaq Kitabxanası 02 may 2012-ci il saat 12:00 tarixində “Kitab. Dünya.Uşaq” adlı dəyirmi masa keçirdi. Tədbirin keçirilməsində əsas məqsəd uşaq yazarlarını, rəssamlar və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltməklə, Beynəlxalq Uşaq Ədəbiyyatı Şurası vasitəsilə ölkəmizi tanıtmaq, bizim nə qədər tolerant dövlət olduğumuzu bütün dünyaya sübut etmək, dünya arenasına çıxmaqdır. Tədbirdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəşriyyat, reklamın təşkili və informasiya şöbəsinin müdiri Vaqif Bəhmənli, uşaq ədəbiyyatı nəşr edən bir çox nəşriyyatların(Altun, Turan, Çinar-Çap, Çaşıoğlu, Təhsil, Beşik ) əməkdaşları , uşaq yazıçılarından, İlyas Tapdıq, Zahid Xəlil, Sevinc Nuruqızı, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Qəşəm İsabəyli, Gülzar İbrahimova, Gülarə Munis, Solmaz Amanova, Oqtay Rza iştirak edirdi.
İBBY- Beynəlxalq Uşaq Kitabı Şurası ilə bağlı hazırlanan çarxlı slaydlar nümayiş olundu. Tədbir iştirakçıları keçirilən mövzu ətrafında çıxışlar etdilər.



Aprelin 15-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Milli Kulinariya Mərkəzinin baş direktoru, Azərbaycan Milli Kulinariya Assosasiyasının prezidenti Tahir Əmiraslanov ilə görüş keçirildi. Kitabxana işçiləri müxtəlif bölgələri təmsil edərək hazırladıqları unudulmuş Azərbaycan milli şirniyyatlarını qonaqlara təqdim etməklə yanaşı, bişirilmə qaydası, hansı mərasimlərdə istifadə olunması haqqında da məlumat verdilər. Bütün bunlar qonaqlarda böyük maraq doğurdu, onları təəccübləndirdi. Tədbirin keçirilməsində əsas məqsəd kitabxana işçilərinin diqqətini milli mətbəximizlə bağlı dünyada baş verən yeniliklər və məlumatlara, faktlara yönəltməklə milii mətbəximiz haqqında daha da geniş məlumat əldə etmək, milli mətbəximizi unutmamaq, bütün dünyada tanıtmaqdır.



12 mart 2012-ci ildə kitabxananın oxu zalında Rusiya Federasiyasının “Ontari-Promtorq” - dan alınmış 786 adda 1572 nüsxə kitabların “Bizə kitab gəlib” adlı sərgisi keçirildi. Sərgini keçirməkdə məqsəd vətənimizin gələcəyi olan uşaqlara hər iki ölkə arasında dostluq əlaqələrindən danışmaq, Azərbaycanın nə qədər tolerant bir dövlət olduğunu sübut etmək idi. Sərgi 1 həftə davam etdi. 14 mart tarixində Heydər Əliyev Fondunun dəvəti ilə Rusiya Xarici Ölkə Dövlət Kitabxanasından bir qrup nümayəndə kitabxananın qonağı oldu, həmçinin sərgi ilə də tanış oldular. Sərgidə məktəblilər, uşaq baxçaları, müəllimlər, fəal oxucular iştirak edirdi. Yüksək estetik zövqlə, bədii tərtibatla işlənmiş kitablar haqqında maraqlı fikirlər söyləndi.



2013 – cü il 2 aprel - Beynəlxalq Uşaq Kitabı Günü münasibəti ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası Beynəlxalq Uşaq Kitabı Gününə həsr olunmuş beşinci milli uşaq kitabı sərgisi açmışdır. 1967-ci ildən Beynəlxalq Uşaq Kitabı Şurası tərəfindən Danimarka yazıçısı, uşaqların sevimlisi Hans Xristian Andersenin dünyaya gəldiyi gün – aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü kimi bütün dünyada qeyd edilir. Sərginin təşkil edilməsində məqsəd uşaqların informasiya tələbatının ödənilməsi ilə əlaqədar onları ölkəmizdə son illərdə nəşr olunan uşaq ədəbiyyatı ilə tanış etmək, mütaliəyə həvəsləndirməklə milli dəyərlərimizə bağlamaq və bu dəyərlərimizi yaşatmaqdır. Tədbirdə balacaların sevimli şair və yazıçılarından İlyas Tapdıq, Qəşəm İsabəyli, Reyhan Yusifqızı, Sevinc Nuruqızı, Fəridə Ləman, Aygün Bünyatzadə, nəşriyyat işçiləri iştirak etmişdir. Uşaq yazarları öz çıxışlarında uşaqlarda tolerantlığa, mütaliəyə, ictimai həyata marağın artırılması baxımından tədbirin əhəmiyyətini xüsusi qeyd etdilər. Beşinci milli uşaq kitabı sərgisi 25 başlıq altında, o cümlədən "Xalq yaradıcılığı paytaxtları-2013", "Nağıllar aləmində", "Sizin sevimli yazıçılarınız", "Sirli-sehrli ilmələr", "Azərbaycan-yurdum mənim", "Gözlə bizi, Qarabağ", "Kitablarda mən hələ…", "Dərədən, təpədən", "Tarix – keçmişdən gələcəyə",



"Yubilyar yazıçılarımız" və s. numayiş olunurdu.

F. Köçərli adına Respublika Uşaq Kitabxanası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş "Dost ölkələrə səyahət: Əzizləyər hər el səni öz adətilə" adlı yarışma keçirəcəyini elan etdi. Səkkiz uşaq evi və internat səsimizə səs verdi. Onlar Yaponiya, Britaniya, Türkiyə, Hindistan, Rusiya, Amerika, Gürcüstan, Koreya dövlətlərini təmsil etməli idilər. İştirakçılar 6 nominasiya üzrə yarışırdılar: Təmsil etdikləri dövlət barədə təqdimat slaydlarını, milli rəqs, milli geyim nümunələri göstərmək, kitab sərgiləri təşkil etmək, milli gəlinciklər və ya applikasiyalar hazırlamaq, bir də nağıl qəhrəmanlarından bir və ya ikisini təqdim etmək.

Yarışmanın açılışı aprelin 26 - da Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında oldu. İki gün davam edən yarışmanın qalibləri isə yekun konsertdə, mayın 2- də bəlli oldu. Uşaqlar çox ciddi hazırlıqlar gördülər. Axı onların işini sanballı münsiflər heyəti – Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sektorunun müdiri Lətifə Məmmədova, Bakı Xoreqrafiya Məktəbinin direktoru Nilüfər Kərimova, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin əməkdaşı,VEB texniki şöbəsinin müdiri Aydın Cəfərov, sənətşünas Kubra Əliyeva, Azərbaycan Yazıçılar Birliyinin üzvü Reyhan Şıxlinskaya dəyərləndirəcəkdi. Üstəlik, adını çəkdiyim dövlətlərin səfirliklərinin nümayəndələri də yarışmaya baxmağa gəlmişdilər.Yaponiyanı – SOS uşaq kəndi, Böyük Britaniyanı – Zəngilan 4 saylı məktəbi, Türkiyəni – Sumqayıt şəhər 2 saylı internat məktəbi, Gürcüstanı – A. Makarenko adına internat tipli gimnaziya, ABŞ - nı 2 saylı valideyin himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbi, Rusiyanı - 3 saylı uşaq evi, Koreyanı "Ümid yeri" uşaq məskəni, Hindistanı isə 2 saylı uşaq evi təmsil edirdi.Uşaqlar "Heydər Əliyev və uşaqlar" adlı videoçarxa baxandan sonra yarışma başladı!

Hər bir məktəb təmsil etdiyi ölkənin haqqında maraqlı videoçarx hazırlamışdı. Slaydda təmsil olunan dövlətin tarixindən, Azərbaycan Respublikası ilə əlaqələrindən , inkişafından, milli adət - ənənələrindən, təbiətindən, şəhərlərindən. heyvanlar aləmindən , bu ölkədə yaşayan uşaqların həyatından çox gözəl məlumatlar toplanmışdı.Uşaqların zəhməti Mədəniyyət və Turizm Nazirliyi, Xarici ölkələrin səfirlikləri, gələn qonaqlar və kitabxanamız tərəfindən yüksək qiymətləndirildi.

Milli geyim üzrə - "SOS" uşaq kəndi, Milli rəqs üzrə 2 saylı valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbi, Videoçarxlar üzrə Sumqayıt şəhər 2 saylı internat məktəbi, Gəlincik və aplikasiyalar üzrə - Suraxanı 2 saylı uşaq evi, Milli geyim və rəqs üzrə "Ümid yeri" uşaq yaşayış məskəni, Milli rəqs üzrə Zəngilan 4 saylı məktəbi, Kitab sərgisi üzrə və nağıl qəhrəmanlarının ən yaxşı təqdimatı üzrə - 3 saylı uşaq evi qalib oldu. Qaliblərə Mədəniyyət və Turizm Nazirliyi, Səfirliklər, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, F. Köçərli adına kitabxana hədiyyələr təqdim etdilər. 3 gün davam edən tədbirdə Azərbaycan Respublikası ilə əməkdaşlıq edən ölkələrin adət ənənələri geniş şəkildə tədbir iştirakçılarına çatdırıldı. Tədbirin gözəlliyi isə ondan ibarət idi ki, bu tədbiri

valideyin himayəsindən məhrum olmuş internat və qaçqın məktəblərinin şagirdləri Mədəniyyət və Turizm Nazirliyinin və kitabxanamızın dəstəyi ilə hazırlamışdılar. Tədbirdə çox sayda xarici vətəndaşlar, uşaq, məktəbli, yeniyetmə var idi. Bu təşəbbüs onlarda tolerantlıq hissinin güclənməsinə çox böyük yardım idi. Tədbirdə iştirak edən yüzlərlə oxucu təmsil olunan dövlətlər haqqında ətraflı məlumat topladılar. Bu təşəbbüs uşaqların bütün millətləri sevməsinə, onları tanımasına, adət - ənənələrini bilməsinə çox kömək etdi. Mənə elə gəlir ki, bu tədbir



kitabxanamızın tolerantlıq sahəsində həyata keçirdiyi böyük nailiyyət idi.
Bu təşəbbüsün rayonlarda həyata keçirilməsi çox yerinə düşərdi. Çünki Azərbaycanda az saylı xalqlar çoxdur. Belə tədbirlər məktəblilər və yeniyetmələr arasında tolerantlıq mövzusunu yaymaq və gücləndirmək məqsədilə keçirilməlidir.
Bu təşəbbüsün rayonlarda həyata keçirilməsi çox yerinə düşərdi. Çünki Azərbaycanda az saylı xalqlar çoxdur. Bu işə onların cəlb olunması, bu xalqları dərindən tanımağımıza və bu xalqlarda Azərbaycan Respublikasına və onun vətəndaşına olan rəğbəti daha da artırmağa kömək edər. Belə tədbirlər məktəblilər və yeniyetmələr arasında tolerantlıq mövzusunu yaymaq və gücləndirmək məqsədilə keçirilməlidir.
15 sentyabr – F. Köçərli adına kitabxana Bilik günü və Sülh aylığı çərçivəsində Nəsimi rayonunda yerləşən Koala parkında “Şən, əyləncəli mütaliə” adlı tədbir keçirdi. Koala parkı “Bilikdən nur alıram mən”, “Oxuya bilirsənsə hər insan bir kitabdır”, “Bilik sərhədsiz bir dənizdir”, “Bilikli adamlar uzağı görər, cahilin zəhməti hədərdir, hədər”, “Biliyə aparan yeganə yol – mütaliədir”,”Hərəmiz günəşin bir zərrəsiyik”,”Gəlin xarici dilləri öyrənək” adlı görkəmli adamların biliklə bağlı söylədikləri müdrik sözlər yazılmış plakatlar, “Kitablar mənəvi sərvətimizdir” adlı şüar və şarlarla bəzədilmişdi. Tədbiri keçirməkdə məqsəd uşaqların kitaba, kitabxanaya olan maraqlarını artırmaq , mütaliəsini təşkil etmək onları tolerant olmağa çağırmaq idi. Bu tədbiri keçirməklə kitabxanamız məktəbli oxucularımıza, Azərbaycanda yaşayan azsaylı xalqlara Azərbaycanın yüksək səviyyədə tolerant bir dövlət olduğunu sübut etmiş oldu.

Tədbirdə yeni nəşr olunmuş uşaq ədəbiyyatlarının sərgisi onların diqqətinə çatdırıldı, qatara, yelləncəklərə minən uşaqlara oxumaq üçün kitablar və kitabxanamızın təsis etdiyi "Göy qurşağı" jurnalı hədiyyə edildi. Bütün tədbir iştirakçılarına kitabxananın bələdçisi və şirniyyatlı vizit kartı verildi. Sərgidə aşağıdakı başlıqlar altında kitablar nümayiş olunurdu:
"Nağıllar aləmində", "Sirli-sehrli nağıllar", "Sizin sevimli yazıçılarınız", "Azərbaycan – yurdum mənim", "Sənin maraq dünyan", "Kitablarda mən hələ, baxıram şəkillərə...", "Çox oxuyan, çox bilər", "Biri var idi, biri yox idi", "Məktəb proqramına kömək", "Hər obada, hər bir eldə, qanad açsın sülh sözü, üzü gülsün insanların, bayram etsin yer üzü", "Həramiz günəşin bir zərrəsiyik" və s.



Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası 23-25 sentyabr 2013-cü ildə ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında iştirak etdi. Sərgidə aşağıdakı başlıqlar altında son illərdə nəşr olunmuş uşaq kitabları nümayiş olunurdu:
"Nağıllar aləmində", "Sirli-sehrli nağıllar", "Sizin sevimli yazıçılarınız", "Azərbaycan – yurdum mənim", "Kitablarda mən hələ, baxıram şəkillərə...", "Gəlin çoxlu dil öyrənək", "Nənələrin boxçasından", "Biri var idi, biri yox idi"

və s.




Sərginin açılışı münasibətilə F.Köçərli adına Respublika Uşaq kitabxanası öz oxucularının, nağıl qəhrəmanlarının timsalında təqdim olundu. Böyük ölçüdə tərtib olunmuş F.Köçərlinin “Balalara hədiyyə” kitabı, kitabxananın tədqimat baneri sərgi qarşısında qoyularaq sərgi iştirakçılarının diqqətinə catdırıldı. Tədbir iştirakçıları böyük monitorda kitabxanada olan ən gözəl kitabların çarxlı slaydlarına baxdılar, “Şirinlər” geyimində olan uşaqlar tədbir iştirakçılarına kitabxananın bələdçisi, vizit kartı, döş nişanları,üzərində kitabxananın loqosu olan bayraqlar payladılar. Nağıl qəhrəmanlarından Cırtdan, Tıq-Tıq xanım, Göyçək Fatma, Məlikməmməd və Biləyən F.Köçərli adına kitabxana haqqında məlumat verdilər, “Danışan kitablar”- isə kitabxanada olan maraqlı kitablardan söhbət açdılar. Bu tədbir Azərbaycanın nə qədər tolerant bir dövlət olduğunu bütün dünyaya tanıtdı.
3 gün davam edən sərgi iştirakçıları 14 fevral 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin ədəbiyyatşünas, pedaqoq, uşaq folklorunun ən görkəmli nümayəndəsi Firidun bəy Köçərlinin anadan olmasının 150 illiyinin keçirilməsi ilə bağlı verdiyi Sərəncamla əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə ərsəyə gələn “Balalara hədiyyə” kitabının nəfis tərtibatı ilə tanış oldular. Ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan III Beynəlxalq Sərgi-Yarmarka iştirakçıları bir daha F.Köçərlinin adını daşıyan bu kitabxana haqqında geniş məlumat əldə etdilər.



Uşaq kitabxanası olaraq tolerantlıq mövzusunda oxucular üçün “Dünya xalqlarının nağılları” , “Hərəmiz günəşin bir zərrəsiyik”, “Hər çiçəkdən bir ləçək” başlığı altında lektoriya keçirə bilərik. Belə ki, kitabxanada həftə içərisində hər gün bir ölkənin nağıllarından ibarət sərgi təşkil olunur. Oxu zalında və ya nağıl otağında mavi ekranda həmin ölkənin haqqında hazırlanmış slayd, nağıllarına çəkilmiş cizgi filmləri nümayiş olunur. İbtidai sinif şagirdləri, bağça uşaqları bu tədbirə dəvət olunurlar. Bu ideyanın birinci müsbət cəhəti uşaqların həmin ölkəni tanıması, onun nağıl qəhrəmanını sevməsi və körpə yaşlarda onlarda tolerantlıq hissinin güclənməsi, ikinci müsbət cəhəti isə oxucularımızın kitabxanaya cəlb olunmasıdır. Bu tədbirdən sonra az yaşlı oxucularımızdan bu nağıllar haqqında fikirləri əsasında rəy sorğusu toplanır. Həftənin sonunda bütün iştirakçılar oxu zalına toplanır və onların bu mövzuda olan fikirləri kitabxana müdiriyyəti, tədbir iştirakçıları tərəfindən dinlənilir və gələcəkdə görüləcək işlər barədə nəticə çıxarılır.

Bəli, vahid bəşəriyyət insan müxtəlifliyinin möhtəşəm zənginliklərinə qarşılıqlı hörmət əsasında birlikdə yaşamaq və birgə işləmək deməkdir. Ölkəmizdə dini və milli dözümlülüyün çox böyük və şərəfli tarixinin olması Bakıda təşkil olunan sivilizasiyalararası dialoqun gücləndirilməsi məsələlərinə həsr olunmuş beynəlxalq konfranslarda da dəfələrlə səslənmişdir. Ötən il Bakıda “XXI əsr: ümidlər və çağırışlar” devizi altında keçirilən Beynəlxalq Humanitar Forumda da dövlət başçısı İlham Əliyev bildirmişdir: “Sivilizasiyaları, dünya dinlərini birləşdirmək, əməkdaşlığı dərinləşdirmək üçün hesab edirəm ki, bizim ölkə kifayət qədər böyük səylər göstərir. Ən önəmlisi ondan ibarətdir ki, bu səylər öz nəticəsini verməkdədir. Çünki əgər belə olmasaydı, Azərbaycanın bu sahədəki təcrübəsi maraq doğurmazdı. Milliyətindən, dinindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları ölkə iqtisadiyyatının güclənməsində iştirak edir. Azərbaycanda milli dəyərlərə sadiqlik, ümumbəşəri dəyərlərə hörmət meylləri respublikanın müasirləşməsinə, modernləşməsinə xidmət göstərir. Ölkənin gücü təkcə onun

iqtisadi imkanları ilə ölçülmür" söyləyən dövlət başçısı İlham Əliyev dünya dini liderlərinin sammitində bir daha bu fikri diqqətə çatdırmışdır ki, bizim gücümüz birliyimizdədir, ölkədə hökm sürən sabitliyin möhkəmlənməsindədir, dini və milli sülhün mövcudluğundadır. Biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş niyyət və münasibətləri, dostluğu nəzərdə tuturuq" deyə bildirən Prezident İlham Əliyev vurğulayır ki, milli dəyərlərimizə sadiq olmalı, qloballaşma adı altında milli mentalitetə xas olmayan keyfiyyətlər aşılanmamalıdır.

Bəli, Azərbaycan xalqı milli mənəvi dəyərlərinə bağlı olmaqla ümumbəşəri dəyərləri paylaşmağa da diqqət yetirir. Məlum olduğu kimi, sovetlər birliyi dövründə xalqımız nə qədər məhrumiyyətlərlə, çətinliklərlə üzləşsə belə dininə, mənəvi dəyərlərinə sadiq qalmışdır. Müstəqillik əldə etdikdən sonra dini ənənələrimizin təbliği, islami dəyərlərə hörmət və ehtiram güclənmişdir. İslam xalqımıza xoşbəxtlik, inkişafı, mədəniyyət, müqəddəs dəyərlər bəxş edib.

Ümummilli lider Heydər Əliyev ictimai-siyasi həyatının bütün sahələrində, o cümlədən dövlət-din münasibətlərinin sivil prinsiplərinə uyğun olaraq tənzimlənməsində, dini etiqad və vicdan azadlığının maneəsiz təminatında, dini-mənəvi, əxlaqi-etik dəyərlərin prioritet yaşayış normaların çevrilməsində müstəsna xidmətlər göstərmiş, böyük siyasi irsin və dövlətçilik təcrübəisnin təməlini qoymuşdur. Azərbaycanda daim diqqət yetirilən vətəndaş birliyi, həmrəyliyi, dini, milli məsələlərin həllində əldə olunmuş uğurlar tarixi sərvətimiz, nailiyyətimizdir. Respublikamızda vicdan, demokratik azadlıqlar güclənir, bu istiqamətdə davam edən meyillər möhkəmlənir.

Ölkəmizdə yaranan bu cür demokratik şəraiti yüksək qiymətləndirən xarici qonaqlar etiraf edirlər ki, dünyada çox az dövlət tapılar ki, Azərbaycanda yaranan tolerantlıq, dini dözümlülüyün təmin olunması üçün səylər göstərilsin, dövlət başçısı səviyyəsində müxtəlif konfessiyaların rəhbərləri ilə görüşlər keçirilsin, ayrı-ayrı xalqların dini mərasimlərində iştirakı təmin olunsun.

Bəli, bu gün Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemlərinə maraq göstərir, ölkədə tolerantlığın formalaşması, milli azlıqların ictimai həyatın bütün sahələrinə inteqrasiyası, dini, əqidə azadlığının təmin olunması üçün dini liderlərlə konstruktiv mövqe nümayiş etdirilir. Müqəddəs dini bayramlar münasibətilə ölkəmizdə məskunlaşan müxtəlif xalqları, icmaları təbrik edən Prezident İlham Əliyev vurğulayır ki, yüksək əxlaqi dəyərlərə əsaslanan tolerantlıq mühitində ölkəmizin bütün milli azlıqları, öz etnik-dini adət-ənənələrini, dil və mədəniyyətini bu günümüzə qədər yaşatmışlar.

Milli-mənəvi dəyərlərimizin yaşadılmasında, tolerantlıq ənənələrinin təbliğində genişmiqyaslı fəaliyyəti ilə ictimaiyyətimizin rəğbətini qazanan Heydər Əliyev Fondu da bu sahədə böyük uğurlara imza atır.

YUNESKO-nun təşəbbüsü olan 2010 - cu il Beynəlxalq Mədəniyyətlərin Yaxınlaşması ilinin əsas mövzusu da tolerantlıqdır.

YUNESKO – nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu sahədə gördüyü işlər danılmazdır.

Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva tarixi-dini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır. Bəli, bu gün tolerantlıq ənənələrinin təblığində, irsimizin tanıdılmasında, həmçinin dünyanın müxtəlif guşələrində əyani şəkildə nümayişində Heydər Əliyev Fondunun məxsusi xidmətləri vardır. Fondun maliyyə dəstəyi ilə Bakıdakı Pravoslav və Müqəddəs Məryəm kilsələrində də təmir-bərpa işləri aparılmış, yəhudi uşaqları üçün təhsil və mədəniyyət mərkəzinin tikintisinə dəstək verilmişdir. Strasburq Kafedral kilsəsinin şüşələrinin təmirinə ayırdığı maliyyə yardımı səxavətli bir jest və Azərbaycanın Avropaya, onun mədəni irsinə verdiyi layiqli töhfədir. Göründüyü kimi, Heydər Əliyev Fondu təkcə İslam dininə aid tarixi-dini abidələrin bərpasına deyil, eləcə də hətta Azərbaycandan kənarda olan digər dinlərə məxsus abidələrin də bərpasına qayğı ilə yanaşır ki, bu da bizim tolerant və sülhpərvər xalq olduğumuzun əyani sübutudur.

Bu gün öz tarixinin silinməz və möhtəşəm səhifələrindən birini yazan müstəqil Azərbaycan Respublikası hər zaman müxtəlif xalqların, millətlərin və din xadimlərinin birgə yaşadığı, mədəniyyətlərin qovuşduğu müqəddəs məkan olmuşdur. Azərbaycana gələn xarici qonaqlar Bakıda keçirilən beynəlxalq miqyaslı mötəbər tədbirlərdə yaxından iştirak edirlər. Qəbələdə keçirilən Beynəlxalq Musiqi Festifalı bunun bariz nümunəsidir. Belə nüfuzlu tədbirlər bəşəriyyətin ümumi maraqlarının həllinə və qlobal problemlərin – terrorizmin, dini fanatizmin, ekstremizmin və separatizmin aradan qaldırılması naminə mədəniyyətlərarası münasibətlərin inkişafına güclü təkan verən bir amildir.

Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın belə müzakirələrə ev sahibliyi etməsi təsadüfi deyil. Ayrı-ayrı etiqad və inanclara malik xalqların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında bizim xalqımıza xas olan humanizm və multikultirarist dəyərlərin müstəsna rolu vardır.

Hazırda mütərəqqi dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik dini tolerantlıq Azərbaycan cəmiyyətinin nümunəvi normalarına çevrilib.

Heydər Əliyev Fondunun vitse- prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Milli Tolerantlıq Mərkəzi" yaradılması bunun bariz nümunəsidir. Bu mərkəzin yaradılmasında məqsəd xalqların birgə yaşaması, islamın inkişafı, Azərbaycanın Qərb və Şərq arasında körpü salmaq idi. Mərkəz dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafına yönəlmiş layihələri dəstəkləyəcək, seminarlar, treninqlər təşkil edəcək.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın həyata keçirdiyi bu təşəbbüslər bir azərbaycanlı olaraq hamımızı sevindirir.

Belə bir şəraitdə bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və

regionların təcrübəsi nümunə ola bilər. Bəli, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir.
Qarşıdakı illərdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tolerantlıq mövzusunda bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Bu faktlar Azərbaycan Respublikasının mədəniyyət və tolerantlıq sahəsində irəli atdığı ən uğurlu addımlardandır. Biz inanırıq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi ilə belə nailiyyətlərimiz çox olacaq. Bu təşəbbüslər bir azərbaycanlı olaraq hamımızı sevindirir. Biz hər birimiz Ulu Öndərimiz Heydər Əliyevin qeyd etdiyi kimi azərbaycanlı olmağımızla fəxr edirik.

Beynəlxalq tolerantlıq günü ərafəsində məqaləyə son vermək üçün Ulu Öndər Heydər Əliyevin başqa bir fikirindən istifadə etmək istəyirəm:

"Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!"

Gəlin, bu ilki Beynəlxalq Tolerantlıq Günündə bütün xalqlar və icmalar arasında dialoq və anlaşmaya sadiq olduğumuzu bir daha təsdiq edək.

Biz kitabxanaçılar olaraq bu sahədə üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməli, tolerantlıq anlayışını düzgün təbliğ etməli, tolerantlığın məkanı sayılan Azərbaycana layiq vətəndaş olmalıyıq.

Ədəbiyyat siyahısı:


1. www.clb.az
2. www.fb.com /clb.az
3. Tehsil.azerall .info/kitabxana
4. www.azerbaijan.az



| | |
|---|---|
| Redaktor: | F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Qəmbərova Şəhla |
| Tərtib edən: | F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi - Metodika şöbəsinin müdiri Məmmədli Ruhiyyə |